# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Azərbaycan Respublikası Mülki Məcəlləsinin qəbul edilməsindən irəli gələn bəzi məsələlərin həll edilməsi haqqında

# Qərar № 224

***Bakı şəhəri, 23 dekabr 2000-ci il***

«Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Qapalı səhmdar cəmiyyətinin iştirakçılarının say həddi 50 fiziki və ya hüquqi şəxslərdən ibarət müəyyən edilsin.

2. Səhmdar cəmiyyətin nizamnamə kapitalının minimum həddi — qapalı səhmdar cəmiyyəti üçün 10 milyon manat, açıq səhmdar cəmiyyəti üçün isə 20 milyon manat məbləğində müəyyən edilsin.

3. Səhmdar cəmiyyətin xalis aktivlərinin dəyərinin onun nizamnamə kapitalından az olmasına yol verilən minimum miqdarı nizamnamə kapitalının 50 faizi qədər müəyyən edilsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ.***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 2000-ci il, № 12, maddə 875) («VES Consultancy» LLC).***

*© VneshExpertService*